# PwC Azerbaijan Times

Biznes Qanunvericiliyi və Praktikası haqqında Xəbərlər

*1-ci Buraxılış, yanvar 2011*

pwc

## *Milli Vergi Sisteminin Inkişafi: Elektron Xidmətlər*

Azərbaycan Respublikasının höküməti milli vergi sisteminin inkişaf etdirilməsinə yönəlmiş islahatları həyata keçirməyi davam etdirir. Vergilər Naziri Fazil Məmmədov 2011-ci il il yanvarın 6-da Vergilər Nazirliyi (VN) tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin artırılması məqsədilə qərar qəbul edib. Qərar 2015-ci ilədək həyata keçirilməsini nəzərdə tutan islahatları və aşağıdakı çatılası məqsədləri ehtiva edir:

- canlı xidmətlərdən elektron xidmət sisteminə keçid (bu vaxta qədər VN vergi elekton bəyannamələrin və vergi-hesab fakturalarından istifadə xidmətlərini göstərməyə başlayıb); 2011-ci ildən başlayaraq isə vergi ödəyiciləri VN tərəfindən avtomatik fərdi elektron məktublar və mobil telefonu vasitəsi ilə qısa məlumatlar (SMS) ala biləcəklər;

- 2012-ci ildə fərdi sahibkarların internet vasitəsilə (vergi orqanına getmədən) qeydiyyatı layihəsinin tətbiqi;

- həmçinin, 2012-ci ildə vergi ödəyiciləri öz hüquqi qeydiyyat məlumatlarında baş verən dəyişiklikləri də internet vasitəsilə qeydiyyata ala biləcəklər və fəaliyyətlərinin ləğv edilməsi haqqında ərizələri elektron şəkildə təqdim etmək iqtidarında olacaqlar;

- 2014-2015-ci illərdə VN elektron imzaların tətbiqi ilə yanaşı bütün kommersiya subyektlərinin də elektron qeydiyyatına start verəcək;

- vergilərin və vergi sanksiyalarının elektron şəkildə ödənilməsi 2012-ci ildə gözlənilir;

- 2012-2013-cü illərdə vergi ödəyiciləri vergi bəyannamələrini VN-nin veb səhifəsi vasitəsi ilə xüsusi proqram təminatını yüklənmədən təqdim edə biləcəklər.

- 2012-2015-ci illərdən etibarən, vergidən yayınanların "qara siyahısı" tərtib olacaqdır ki, bu siyahı da internet və media vasitəsi ilə ictimaiyyətə çatdırılacaqdır. Hal hazırda "qara siyahıya" düşməyin vergi ödəyiciləri üçün hansı nəticələrə gətirib çıxara biləcəyi məlum deyildir.

Bundan əlavə, Vergilər Nazirinin qərarında VN-in işçiləri üçün, vergi ödəyiciləri ilə mütamadi ünsiyyətdə olan işçilər də daxil olmaqla, təlimlərin keçirilməsinə dair məsələ də əhatə olunub.

PwC Azerbaijan Times öz oxucularına yuxarıda adı çəkilən qərarın tətbiqi ilə əlaqədar hər hansı yenilik olarsa gələcək nəşrlərində məlumat verəcəkdir.

## *Tenderlərdə Qalib Gələn Vergi Ödəyicilərinin Fəaliyyətinə Vergi Nəzarəti*

Vergilər Naziri Fazil Məmmədovun 13 yanvar 2011-ci il tarixli əmri ilə aşağıdakı şəxslər xüsusi məlumat formasını Vergilər Nazirliyinə təqdim etməlidirlər:

- dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən investisiya layihələri üzrə keçirilən tenderlərin qalibləri;
- İqtisadi İnkişaf Nazirliyi, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi, büdcə təşkilatları və səhmlərinin (paylarının) 50 faizdən çoxu dövlətə məxsus olan hüquqi şəxslər, dövlət vəsaiti və dövlət zəmanəti ilə alınmış kreditlər hesabına mal (iş, xidmət) alınması ilə əlaqədar bağlanılan, məbləği 50 min manatdan yuxarı olan müqavilələr bağladıqları halda.

Xüsusi məlumat forması müqavilənin bağlnamasından sonra bir ay ərzində VN-ə təqdim olunmalıdır.

## *Buğda və Meslin Artiq ƏDV-dən Azaddir*

Nazirlər Kabinetinin qərarına əsasən Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısına buğda, meslin, həmçinin buğda unu və ya buğda-çovdar unu da yenidən əlavə olundu. Azadolma 2011-ci il avqustun 1-dək qüvvədədir.

## *Ikiqat Vergitutmanin Aradan Qaldirilmasina Dair Beynəlxalq Sazişlər*

- Azərbaycan və Serbiya arasında imzalanan İkiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq saziş 1 dekabr 2010-cu ildən qüvvəyə minir və 1 yanvar 2011-ci ildən etibarən qüvvədədir.
- 17 yanvar 2011-ci ildə Azərbaycan və Latviya qarşılıqlı olaraq birgə inzibati əməkdaşlığa və vergi ilə əlaqədar informasiya mübadiləsinə dair müqavilə imzalayıblar.

## *Icbari Siğorta Qaydalari*

PwC Azerbaijan Times-ın 6-cı nəşrində verdiyimiz məlumata əsasən, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta" Qanunu ("Bədbəxt Hadisələr Haqda Qanun") 3 iyul 2010-cu ildə qüvvəyə minib və Nazirlər Kabineti qanunun tətbiqi məqsədilə barəsində sizi əvvəlki nəşrimizdə məlumatlandırdığımız bir neçə qərar qəbul edib.

15 dekabr 2010-cu il tarixində Maliyyə Nazirliyi aşağıdakı qaydaları təsdiqləyib:

- İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsi üzrə sığorta məbləğinin müəyyənləşdirilməsi qaydası

- İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta ilə bağlı annuitet haqqının məbləğinin hesablanması qaydaları

- Annuitet müqaviləsinin məzmunu və forması, onun bağlanılması, dəyişdirilməsi və ona xitam verilməsi qaydaları

- İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından sığorta edən ilə sığorta olunan arasında nümunəvi icbari sığorta müqaviləsi

"Bədbəxt Hadisələr haqda Qanun" həmçinin xarici işçilər və ya vətəndaşlığı olmayan işçilərə də tətbiq olunur. Lakin, bu Qanunun 3.2-ci maddəsində nəzərdə tutulduğu kimi, Məcburi Dövlət Sosial Sığorta haqqında Qanunla sosial sığorta ayırmalarından azad olan xarici işçilərə, başqa sözlə desək, Azəri-Çıraq-Günəşli və ya Şahdəniz yataqlarının işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişləri üzrə fəaliyyət göstərən xarici işçilərə tətbiq olunmur.

Qanunda hasilatın pay bölgüsü haqqında digər Sazişlər üzrə fəaliyyət göstərən xarici işçilərin azad olunması qeyd edilməyib, baxmayaraq ki, bu digər Sazişlər sosial sığorta ayırmalarından azadolma nəzərdə tuturlar.

PwC Azərbaycan Maliyyə Nazirliyi ilə apardığı telefon danışığından əldə etdiyi şifahi məlumata əsasən işəgötürənlər və fərdi sahibkarlar adı çəkilən qanun və qaydalara riayət etməyə dərhal başlamalıdırlar.

PwC Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi ilə telefon əlaqəsi yaratdı və məlumatlandırıldı ki, qanunun və onunla bağlı digər qanunvericilik aktlarının pozulmasına görə sanksiyalar hələ tam işlənilib başa çatdırılmayıb.

PwC Azerbaijan Times öz oxuyucularına bu məsələ ilə bağlı yeniliklıər olarsa gələcək naşrlərdə məlumat verəcək.

## *İNKOTERMS® 2010*

Beynəlxalq Ticarət Palatası 2010-cu ilin sentyabr ayında 2011-ci il yanvarın 1-dən qüvvədə olan İNKOTERMS® 2010 qəbul edib.

Hal hazırda İNKOTERMS® 2010 13 bənd əvəzinə 11 bəndən ibarətdir. DAF, DDU, DEQ və DES qaydaları DAP (yerində təqdim olunan) və DAT (terminalda təqdim olunan) ilə əvəz olunub.

Qaydalar dörd qrup (E, F, C və D) əvəzinə İnkoterms® 2010 artıq iki qrupa bölünüb:

(1) Bütün nəqliyyat növlərinə aid olan qaydalar; və

(2) Yalnız dəniz və daxili su nəqliyyatına aid olan qaydalar

Bundan əlavə, İnkoterms® 2010 lazımi qaydaların seçilməsini asanlaşdıran təlimat və qrafları, qaydaların yerli ticarətdə istifadəsi üzrə məsləhətləri, elektron prosedurlarla bağlı qaydaları və yük daşımaların mühafizəsi ilə bağlı məlumatları əhatə edir.

## *Sığorta və Təkrar Sığorta Şirkətlərinin Minimum Kapital Tələbləri*

Maliyyə Nazirliyi 2008-ci ildə 2011-2012-ci illər üçün minimum kapital tələblərini müəyyən etdiyinə baxmayaraq, 29 noyabr 2010-cu ildə Maliyyə Nazirliyi, global iqtisadi böhranın mənfi təsirlərini nəzərə alaraq, sığorta və təkrar sığorta şirkətləri üçün minimum kapital tələblərini 2011-2013-cü illər üzrə aşağı salınmasına dair yeni Qərar qəbul etdi.

Yeni kapital tələblərini əks etdirən cədvəl:

| Qüvvəyə minmə tarixi | Minimum kapital səviyyəsi sığorta şirkətləri üçün | Minimum kapital səviyyəsi təkrar sığorta şirkətləri üçün |
|---|---|---|
| **1 yanvar 2011** | 3mln AZN (3.5mln 2008-ci ildə) | 6mln AZN (7mln 2008-ci ildə) |
| **1 yanvar 2012** | 4mln AZN(5mln 2008-ci ildə) | 8mln AZN (10mln 2008-ci ildə) |
| **1 yanvar 2013** | 5mln AZN | 10mln AZN |

## *PwC-nin Yeni Nəşrləri:*

**Qarşılıqlı surətdə asılı olan şəxslər arasında bağlanan sövdələşmələrə dair Beynəlxalq qaydalar 2011**

Hal-hazırda, 12-ci nəşr çap olunub və bu nəşr istifadə üçün kifayət qədər asandır və dünyanın 60-dan çox ölkəsində qarşılıqlı surətdə asılı olan şəxslər arasında bağlanan sövdələşmələrə dair beynəlxalq qaydalar ilə əlaqədar olan bir sıra məsələləri əhatə edir. Hər bir şirkətin hansı səbəbdən dəyişən bazar şərtlərinə cavab verən bu qaydalara riayət etməsinin zəruriliyi kitabda ehtiva olunur. Kitab, yalnız qarşılıqlı surətdə asılı olan şəxslər arasında bağlanan sövdələşmələr üzrə qaydaların inkişaf etdirilməsi səbəblərini deyil, həmçinin, bu qaydaların niyə mütəmadi olaraq yenidən qiymətləndirilməsini müzakirə edir. Kitabı burada yükləyə bilərsiz http://www.pwc.com/gx/en/international-transfer-pricing/index.jhtml

**PwC Azərbaycan Əmək Haqqı Sorğusu**

Sorğuda iş uyğunluğu alətləri, 500-dən çox vəzifəni əhatə edən məlumat toplusu və hər vəzifə üçün təfsilatlı əmək haqqı statistikası daxil olmaqla iş təsnifatı ilə tanış ola bilərsiz. Əmək Haqqı Sorğusunun nüsxəsini əldə etmək istəyirsizsə, Yegana Məmmədova ilə bu ünvan vasitəsi ilə yegana.mamedova@az.pwc.com əlaqə saxlaya bilərsiz.

## *PwC Azərbaycan Tədbirləri*

28 yanvar 2011-ci il tarixində keçirilmiş ***"Dövlət Orqanlarının Yoxlamaları üzrə Praktiki Məsləhətlər"*** seminarı
http://www.pwc.com/az/en/events/How_to_Survive_a_Regulatory_Audit_Workshop.jhtml

## *Əlaqə:*

PwC Azərbaycan
Landmark Ofis Plaza III, 12ci mərtəbə, Nizami 90A
AZ 1010, Bakı, Azərbaycan
T: +994 (12) 497 25 15, F:+994 (12) 497 74 11, www.pwc.com/az

© 2011 PwC. Bu xəbərlərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların səhihliyinə və ya tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən əvvəl) oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.